



# Yaponiya ilə regional əməkdaşlıq əlaqələri genişlənir

**Azərbaycan və Yaponiya arasında regionlararası əməkdaşlığın inkişaf etdirilməsi çərçivəsində Bakı şəhəri Xətai Rayon İcra Hakimiyyətinin nümayəndə heyəti dekabrın 2-dən 9-dək bu ölkədə səfərdə olub.**



Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov, Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmov, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin sektor müdiri Səadət Rəhimli və Xətai RİH Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Pənah İmanovun daxil olduğu nümayəndə heyətinin səfərinin məqsədi iki ölkənin münasibətləri tarixində ilk dəfə paytaxt şəhərlərinin rayonları arasında dostluq və əməkdaşlıq münasibətlərinin yaradılması və bu məqsədlə Bakı şəhərinin Xətai rayonu ilə Tokio prefekturasının Setaqaya şəhəri və İşikava prefekturasının Komatsu şəhəri arasında əlaqələrin qurulması idi.



Səfər çərçivəsində nümayəndə heyətinin üzvləri Yaponiya parlamentində, Xarici İşlər Nazirliyində olub, Azərbaycan ilə əməkdaşlıqda maraqlı olan bir sıra Yaponiya şirkətlərində görüşlər keçirib, işgüzar müzakirələr aparıblar. Görüşlərdə nümayəndə heyətinin rəhbəri Razim Məmmədov ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadiyyatın bərpası və sürətli inkişafı ilə bağlı strategiyanın işlənib hazırlanması barədə məlumat verib. Vurğulayıb ki, Prezident İlham Əliyev tərəfindən bu strategiyanın uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilib və dünyanın sürətlə inkişaf edən iqtisadiyyatları arasında mövqeyini möhkəmləndirib.

Cari ildə Azərbaycan-Yaponiya diplomatik münasibətlərinin qurulmasının 25 illiyinin qeyd olunduğunu xatırladan icra başçısı xüsusən iqtisadi sahədə əldə edilən uğurlar barədə məlumat verib, yubileylə bağlı Prezident İlham Əliyev və Yaponiyanın Baş naziri Şinzo Abe arasında təbrik məktubları mübadiləsinin həyata keçirildiyini vurğulayıb.

Xətai rayonunun sosial-iqtisadi göstəriciləri barədə məlumat verən icra hakimiyyətinin başçısı əldə edilən uğurlar, həyata keçirilən layihələr barədə də danışıb. Xətai rayonunun sosial-iqtisadi inkişafı və Xocalı faciəsinin 25 iliyi barədə nəşrlər qarşı tərəfə təqdim olunub.

Görüşlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, erməni işğalçılarının Xocalı şəhərində törətdiyi soyqırımı barədə məlumat verilib, bu faciəyə həsr edilən abidənin məhz Xətai rayonu ərazisində yerləşdiyi qeyd olunub.

Xətai rayonunun beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirdiyini bildirən R.Məmmədov rayonun Türkiyənin Mersin vilayətinin Tarsus şəhəri və Belarusun Minsk şəhərinin Leninsk rayonu ilə də qardaşlıq əlaqələrinə malik olduğunu deyib. Gələcəkdə Tokio prefekturasının Setaqaya şəhəri və İşikava prefekturasının Komatsu şəhəri ilə də bu cür əməkdaşlığın hər iki tərəf üçün faydalı olacağını vurğulayıb.

Görüşlər zamanı Xətai rayonunda 2015-ci ildə "Kosugi Zohen Co.LTD" şirkəti tərəfindən salınmış "Yapon bağı"nın Azərbaycan və yapon xalqları arasında dostluq əlaqələrinin rəmzinə çevrildiyi xüsusi qeyd edilib.



2017-ci ildə Azərbaycan və Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinin qeyd edildiyi xüsusi vurğulanan görüşlərdə Milli Məclisin deputatı, YAP Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmov və Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin sektor müdiri Səadət Rəhimli ölkələrimizin dostluq münasibətlərinin xalqlarımız arasında da yayılmasının əhəmiyyətini bildiriblər, regionlararası əməkdaşlığın münasibətlərdə yeni imkanlar yaradacağına əminliklərini diqqətə çatdırıblar. Vurğulayıblar ki, Yaponiya və Azərbaycan dövlətləri arasında qurulmuş əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi baxımından qarşılıqlı səfərlərin və dialoqun artırılması vacibdir. İki ölkə arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlığı daha da inkişaf etdirmək məqsədilə qarşı tərəfin nümayəndələri, xüsusilə Komatsu şəhərinin meri Şinci Vada və Setaqaya şəhərinin meri Nobuto Hosaka Azərbaycana səfərə dəvət olunublar.

Yaponiya parlamentinin Müşavirlər Palatasının üzvü Akiko Santo ilə görüşdə o, Azərbaycan nümayəndə heyəti ilə ötənilki görüşünü məmnuniyyətlə xatırlayıb. Qeyd edib ki, Xətai rayonunda salınmış "Yapon bağı" iki ölkə arasında dostluq münasibətlərinin inkişafına müsbət təsir göstərir. İki dost ölkənin regionları arasında əməkdaşlıq münasibətlərinin qurulması istiqamətində Xətai rayonunun fəaliyyətini alqışlayan A.Santo bu istiqamətdə daim dəstək göstərməyə hazır olduğunu vurğulayıb.

Yaponiya Xarici İşlər Nazirliyinin Avropa məsələləri bürosunun baş direktor müavini, Mərkəzi Asiya, Qafqaz və GUAM ölkələri üzrə xüsusi nümayəndə Toşihiro Aiki ilə görüşdə iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinin mühüm uğurlarla qeyd edildiyi, ötən dövrdə qarşılıqlı rəsmi səfərlərin artdığı, iqtisadi əməkdaşlığın genişləndiyi xüsusi vurğulanıb. Yaponiya XİN-in iki ölkənin regionları arasında əməkdaşlıq əlaqələrinin inkişafını dəstəklədiyi və bu istiqamətdə lazım olan köməyi göstərməyə hazır olduğu vurğulanıb. Bildirilib ki, bu əlaqələrin inkişafı iki dost ölkəni bir-birinə daha da yaxınlaşdıraraq xalqlarımız arasında dostluğu daha da möhkəmləndirəcək.

İşikava prefekturasının Komatsu şəhərinə səfər zamanı nümayəndə heyətinin üzvləri şəhərin meri Şinci Vada və şəhər şurasının sədri Toşikazu Umeda ilə görüşüblər. Söhbət zamanı tərəflər qarşılıqlı əməkdaşlığın gələcək inkişafı məsələlərini müzakirə ediblər. Bu yaxınlarda Azərbaycana, həmçinin Xətai rayonuna səfərin xoş təəssüratlarından hələ də ayrılmadığını vurğulayan Ş.Vada göstərilən qonaqpərvərliyə və diqqətə görə minnətdarlığını bildirib. Qeyd edib ki, Komatsu şəhəri Xətai rayonu ilə qarşılıqlı faydaya əsaslanan əməkdaşlığın inkişafında maraqlıdır və bu əlaqələrin dostluq münasibətlərinə çevrilməsini alqışlayır.

Azərbaycan nümayəndə heyəti şəhərin sənaye, təhsil və mədəniyyət obyektləri ilə tanış olub. Əsasən tikinti sektoru üçün texnikanın istehsal edildiyi "Komatsu LTD" şirkətində nümayəndə heyətinə şirkətin fəaliyyəti barədə ətraflı məlumat verilib. Daha sonra şirkətin məhsullarının təqdimatı keçirilib. Yalnız Yaponiyada deyil, bir çox ölkələrdə də zavodları olan şirkətin məhsullarının bütün dünyada geniş tətbiq edildiyi xüsusi vurğulanıb.

Azərbaycan nümayəndə heyəti Komatsu Universitetində, "Komatsu hills" Elm Mərkəzində, Mədəniyyət mərkəzində, "Hikiyama" qalereyasında və "Hiyo" mamır bağında da olub. Komatsu Universiteti ilə tanışlıq zamanı bu ali təhsil ocağının Bakı Dövlət Universiteti ilə əməkdaşlıq əlaqələri qurduğu, gələn ildən başlayaraq müəllim və tələbə mübadiləsinin həyata keçiriləcəyi bildirilib.

Qədim tarixə malik "Hiyo" mamır bağının insanla təbiətin canlı vəhdətini qoruyan mühüm ünvan kimi xüsusi əhəmiyyət kəsb etdiyi, Yaponiya Ətraf Mühit Nazirliyi və BMT Universiteti tərəfindən yüksək qiymətləndirildiyi qeyd edilib. Bildirilib ki, yaponların həm də "Müdriklik bağı" adlandırdığı bu ərazi turistlər arasında xüsusi populyarlığı ilə seçilir və onlar uzun məsafə qət edərək bu bağı ziyarətə gəlirlər. Komatsu şəhərində keçirilən görüşlər zamanı buradakı müəssisələrlə Xətai rayonu arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Nümayəndə heyətinin Setaqaya şəhərinin meri Nobuto Hosaka ilə görüşü zamanı ötən ilin dekabrında qarşılıqlı əməkdaşlığın inkişafı ilə bağlı aparılan müzakirələr xatırlanıb, gələcək fəaliyyət barədə fikir mübadiləsi aparılıb. Bildirilib ki, Setaqaya şəhəri və Xətai rayonu arasında dostluq münasibətlərinin qurulması məqsədilə qarşılıqlı təbliğatın aparılması davam etdirilməlidir və bu məqsədlə Setaqaya şəhərinin meri Azərbaycana səfərə dəvət olunub.

Burada "Kosugi Zohen Co.LTD" şirkətinin rəhbəri Saki Kosuqi ilə keçirilən görüşdə şirkətin rəhbəri bundan sonra da iki ölkə arasında dostluq və əməkdaşlığın inkişafı istiqamətində səylərini artıracağını, növbəti birgə layihələrdə iştirak etməyə hazır olduğunu vurğulayıb.

"Cross Border Club" şirkətinin baş meneceri Kazuyasu İşida ilə görüşdə isə yapon iş adamı Bakıda təşkil edilən "Japan Expo 2017" sərgisi zamanı yapon biznesmenlər tərəfindən Xətai rayonunun da ziyarət olunduğunu xatırladıb. Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən K.İşida Yaponiyada Azərbaycanın təşviqi istiqamətində fəaliyyətini bundan sonra daha da genişləndirəcəyini bildirib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın Yaponiyadakı səfirliyində keçirilən görüş zamanı səfir Gürsel İsmayılzadə Yaponiya ilə əlaqələrin son illər daha da intensivləşdiyini bildirib. Söhbət zamanı Azərbaycanın beynəlxalq tədbirlərin təşkil edildiyi mərkəzə çevrilməsi nəticəsində yaponların da ölkəmizə marağının artdığı, respublikamıza səfərə gedən turistlərin sayının çoxaldığı qeyd edilib, səfirliyin fəaliyyəti barədə məlumat verilib.

Xətai Rayon İcra Hakimiyyətinin başçısı R.Məmmədov Yaponiyadakı səfərin təşkilində göstərilən köməyə görə təşəkkürünü bildirib. Qeyd edib ki, nümayəndə heyətinin Yaponiyaya səfəri səmərəli olub, regionlararası əməkdaşlığı gücləndirmək vəzifəsi uğurla icra edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***